

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

№ 20-21 (7425-7426) • 1933-cü ildən nəşr olunur • Çərşənbə, 19 aprel 2017-ci il. • Qiyməti 40 qəpik


# Kənd təsərrüfatı məhsulları istehsalı qeyri-neft sektorunun aparıcı sahəsinə çevrilir

## Prezident İlham Əliyevin sədrliyi ilə qeyri-neft ixracatçılarının respublika müşavirəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 17-də Yevlaxda qeyri-neft ixracatçılarının respublika müşavirəsi keçirilib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açdı.

Sonra iqtisadiyyat naziri Şahin Mustafayev, Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Elçin Mədətov, Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri İsmayıl Orucov, "Azersun Holdinq" MMC-nin baş icraçı direktoru Savaş Uzan, "Az-Granata" MMC-nin direktoru Rövşən Fərhadov, "Gök-NUR Bakı" MMC-nin müdiri Fərid Fərhadzadə, "D-Fruits Kəndli Təsərrüfatı" MMC-nin təsisçisi İsaməddin Dəmirov, Biznes İnkubator iştirakçısı Ariz Mikayılov çıxış etdilər.

Prezident İlham Əliyev müşavirədə yekun nitqi söylədi.



## Prezident: Fındıq ixracından əldə etdiyimiz valyutanı 105 milyondan 200 milyona asanlıqla çatdıra bilərik

Bu ilin birinci rübündə ən böyük artım pambıq lifinin ixracında olub - 700 faizdən çox. Süd məhsullarının ixracı 260 faiz artıb. Meyvələr arasında ən böyük ixrac artımı almada olub - 144 faiz. Nar 125 faiz artıb. Bunlar çox yaxşı göstəricilərdir.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Yevlaxda qeyri-neft ixracatçılarının respublika müşavirəsində deyib: "2016-cı ildə bizə ən çox valyuta gətirən məhsulları da qeyd etmək istəyirəm. Birinci yerdə fındıqdır - ölkəmizə 105 milyon valyuta gəlib. Fındıqçılığın inkişafı çox sürətlə gedir. Burada da səsləndi, biz 15 min hektar yeni fındıq bağları saldıq və bu iş sürətlə gedir. O cümlədən baramaçılıq. Biz 2015-ci ildə 200 kiloqram barama tədarük etmişdiksə, keçən il bu, 70 ton olmuşdur. Bu il 100 ton olacaqdır. Fındıq bizim 19 rayonda daha çox yetişdirilir, ancaq potensial 46 rayonda var. Hesab edirəm ki, biz fındığın istehsalını da, ixracını da iki dəfə artıra bilərik. Biz o 105 milyonu 200 milyona rahatlıqla çatdıra bilərik".

## Prezident İlham Əliyev kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı sahəsi üzrə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi, aqrar sığortanın inkişaf etdirilməsi və aqrar sahəyə investisiya qoyuluşlarının təşviqi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası Prezidentin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin "Maliyyəyə çıxışın asanlaşdırılması" sərlövhəli 3-cü strateji hədəfində nəzərə tutulmuş prioritetlərdə göstərilən tədbirlərin əhatə edildiyi daha təfsilatlı və geniş tədbirlər planını, icraçılar və icra müddətləri göstərilməklə, bir ay müddətində hazırlayaraq təsdiq etməlidir.

Həmçinin Şuraya tədbirlər planının qanunvericilik və institusional islahatların həyata keçirilməsini nəzərdə tutan hissəsinin 2017-ci ildə icrasını təmin etmək məqsədilə zəruri tədbirlər görmək tapşırılıb.

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin otuz səkkizinci cildi çapdan çıxıb




"Mən həmişə demişəm ki, Qafqaz vahid bir orqanizmdir. Şimali Qafqazda, Cənubi Qafqazda baş verən proseslərlə sıx bağlıdır. Biz hamımız çalışmalıyıq ki, bölgəmizdə, bu gözəl Qafqaz bölgəsində sülh, əmin-amanlıq, tərəqqi təmin edilsin, insanlar sülh, rifah şəraitində yaşasınlar və ölkələrimiz inkişaf etsin, çiçəklənsin. Biz buna ancaq birlikdə nail ola bilərik. Birgə səylərimizlə, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında, bir-birimizə kömək etməklə biz buna nail ola bilərik. Azərbaycan öz tərəfindən bu istiqamətdə üzərinə düşən vəzifələri ləyaqətlə icra edir".

AZƏRTAC xəbər verir ki, yenicə çapdan çıxmış "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 38-ci cildində yer alan bu fikirləri dövlətimizin başçısı 2009-cu ilin noyabrında Bakıda keçirilən "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfransda çıxışı zamanı söyləyib.

Çoxcildliyin bu nəşrinə daxil olan materiallar 2009-cu ilin sentyabrından noyabrınadək olan dövrü əhatə edir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin bu cildində dövlətimizin başçısının Moldovaya səfəri çərçivəsində keçirdiyi görüşlərə, Kişineuda MDB Dövlət Başçıları Şurasının iclasında iştirakına, Moldovada Azərbaycan Televiziyasına müsahibəsinə, İordaniyaya, İsveçrəyə səfərlərinə, İsveçrədə Azərbaycan mədəniyyəti günlərinin rəsmi açılışında iştirakına, Belarusa və Bolqarıstana səfərlərinə dair materiallar və məktubları yer alıb. Kitabda Azərbaycan Prezidentinin Qazaxıstan, Türkiyə, Qırğızıstan və Sloveniya prezidentlərinin ölkəmizə səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə danışıqlarına, mətbuata bəyanatlarına, imzalanan sənədlərə dair materiallar da toplanıb.